*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 39-45*

https://doi.org/10.62837/2026.1.39

**İRADƏ İSRAFIL QIZI KƏRIMOVA**
***BDU, filologiya üzrə fəlsəfə doktoru***

# SOSİAL ŞƏBƏKƏLƏRDƏ LEKSİK NORMALARIN POZULMASININ ƏSAS SƏBƏBLƏRİ

**Açar sözlər:** Azərbaycan ədəbi dili, sosial şəbəkələr, ədəbi dil normaları, leksik norma, norma pozuntusu, əsas səbəblər.
**Ключевые слова:** Азербайджанский язык, социальные сети, литературные нормы языка, лексическая норма, нарушение нормы, основные причины.
**Key words:** Azerbaijani language, social networks, literary language norms, lexical norm, violation of the norm, main reasons.

Müasir dövrümüzdə ana dilimizin əsas problemlərindən biri sosial şəbəkələrdə Azərbaycan ədəbi dilinin normalarının pozulması ilə bağlı məsələlərdir. İnsanların real həyatda cəsarət etmədikləri sözləri, ifadələri sosial şəbəkələrdə səsləndirərək dilin ədəbi dil normalarını, eyni zamanda etik normalarını pozmaları cəmiyyətin mədəniyyət səviyyəsinə mənfi təsir edir. Bu, həm sosial, həm də psixoloji cəhətdən cəmiyyətin bütövlüyünü təhlükə altına atır.

Respublikamızın Prezidenti Cənab İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"-nda ana dilimizin dövlət dili kimi inkişafı, ədəbi dil normalarına əməl olunması üçün ciddi vəzifələr müəyyənləşdirdi (1,1).

Qeyd etmək vacibdir ki, sosial şəbəkələrdə Azərbaycan ədəbi dilinin leksik normalarının pozulması şəbəkə istifadəçilərinə adi görünsə də dilimizin ədəbi dil normalarına ziddir. Təəssüf ki son illər elektron medianın sürətlə inkişaf etdiyi bir şəraitdə dil normalarının ciddi şəkildə pozulması hallarına tez-tez rast gəlirik. Sosial şəbəkələrdə çox ciddi dil pozuntularına yol verildiyinin şahidi oluruq. Ədəbi dilin norma pozuntuları müxtəlif səviyyələrdə özünü göstərir. Bir çox hallarda leksik, üslubi və qrammatik norma pozuntularına rast gəlirik. Ədəbi dilimizin təmizliyini pozan sözlər işlədilir. Sosial şəbəkələrdə sözlərin qısaldılaraq, "salam" sözünü "slm", tamam "tm", "necəsən"-i "ncs", "təşəkkür"-ü "tşk" və sairə şəklində yazıldığını dəfələrlə görürük.

Müasir dövrün gəncləri bu pozuntunu, bu savadsızlığı olduqca səhv oiaraq "müasir yazışma forması" kimi "qiymətləndirirlər. Elə bu baxımdan sosial şəbəkələrdə ədəbi dilimizin leksik normaları tez-tez pozulur: sözlər saitsiz işlənir, hər kəs öz bilik səviyyəsində yazır. Buna görə də ədəbi dil normaları kobud şəkildə pozulmuş olur, sözlər istənilən kimi yazılır, yəni düzgün yazı qaydalarına əməl olunmur, tələffüz etdikləri kimi yazırlar, nitqdə dialekt, şivə, hətta loru, vulqar, tabu

sözlər belə işlədilir, sözlər mənalarına görə düzgün istifadə edilmir, cümlədə söz sırası və sözlərin düzgün əlaqələndirilməsinə əməl olunmur, təzə dil öyrənən əcnəbilərin nitqinə bənzəyir. Belə pozuntulara sosial şəbəkələrdə ünsiyyət zamanı təəssüf ki çox tez-tez rast gəlirik.

Sosial mediada leksik normaların pozulması niyə olur və nə deməkdir? Sosial mediada leksik normaların pozulması o deməkdir ki, insanlar ədəbi dil normalarına uyğun olmayan sözlərdən, ifadələrdən istifadə edir, bəzən sözləri dar mənalarda işlədir, əlaqəli ifadələr işlətməkdən çəkinir, qısa və tələsik ifadə formalarına üstünlük verirlər, belə pozuntular isə üslubun pozulmasına gətirib çıxarır. Bu hallar, rəqəmsal ünsiyyətin sürəti, və ya savadın, mədəni səviyyənin azlığından baş verir. Nəticədə ədəbi dil normaları pozulur, dilin ümumi səviyyəsi aşağı düşür.

Azərbaycan dilinin tədrisinin və tətbiqinin genişləndirilməsinin, Azərbaycan dilinin öyrənilməsi və təbliği sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin, təbliğinin vacibliyi əlbəttə ki ədəbi dil normalarına mütləq əməl olunması, normaların pozulmaması şərtilə vacib və mütləqdir.

Publika.az xəbər verir ki, bu sözləri "Xalq qəzeti"nin Humanitar siyasət şöbəsinin müdiri İlham Abbasov hazırkı monitorinqlərin əvvəlkilərdən prinsipcə fərqləndiyini bildirib.: "Son 3 ayda aparılan yoxlamalar göstərir ki, dil normalarının pozulması baxımından saytların vəziyyəti qəzetlərdən daha pisdir" (2,1).

Dilimizin təmizliyinin qorunması həmişə diqqət mərkəzində olsa da, hələ də bu təmizliyi pozmağa cəhd edənlərə social şəbəkələrdə də rast gəlirik. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin saytların monitorinqi ilə bağlı hesabatına istinadən bəzi saytlarda hələ də Azərbaycan dilinin imkanlarından yetərincə və düzgün istifadə edilmədiyinin şahidi oluruq. Sosial şəbəkələri monitorinq etməkdə məqsəd ədəbi dilin normalarının pozulması hallarını müəyyən edərək təhlillər aparmaq, qüsurları aradan qaldırmaq, lazımi tədbirlər görməkdir. Aparılan monitorinqin nəticəsində 3976 faktdan 1676-sı orfoqrafik, 488-i leksik, 872-si qrammatik, 940-ı isə üslubi səhvlər qeydə alınaraq aradan qaldırılmasının vacibliyi göstərilmişdir. Bu baxımdan Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin təşkil etdiyi Azərbaycan ədəbi dil normalarının düzgün tətbiqinə həsr olunmuş nəzəri-praktik təlimlərdə iştirakları vacibdir.

Saytlarda əvvəlki monitorinqlərlə müqayisədə müəyyən irəliləyişlərin olmasına baxmayaraq, ədəbi dil normalarının pozulması hallarına hələ də çox rast gəlinir. SİA xəbər verir ki, bunu Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin şöbə müdiri Vəfa İsmayılova "Saytlarımız monitorinq aynasında" adlı hesabat tədbirində deyib. Onun sözlərinə görə aşkar edilmiş 4500 dil faktından 3564-ü hesabata daxil edilib. Ümumi olaraq 52 saytda monitorinq aparılıb. 1371 orfoqrafik, 356 leksik, 909 qrammatik norma pozuntusu, 928 üslub və ifadə səhvi müəyyən olunub", - V. İsmayılova qeyd edib (4,1).

Qloballaşma dövrümüzdə terminologiya dilimizə nüfuz edir və dünyanın qəbul etdiyi elmi terminləri hər bir dil qəbul edir və ya qarşılığını yaratmağa çalışır. Lakin qloballaşmanın bizə gətirdiyi bütün terminləri kor-koranə qəbul etmək düzgün deyil. Belə dil pozuntuları dilimizin saflığına xələl gətirən, dilimizi korlayan amillərdir. Dilimizi təmizliyini qorumaq, onu zənginləşdirmək qayğısına qalmaq hər birimizin vətəndaşlıq borcudur.

Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, professor Sayalı Sadıqovanın ONA-ya müsahibəsində haqlı olaraq deyir: "…Termin elmi dilin açarıdır. Ona görə də əksərən beynəlxalq terminlər seçilir. Əlbəttə, ilkin dövrdə "bilgisayar" sözü də "kompüter"-lə yanaşı işlənirdi. Sonradan "bilgiyasar" dildən çıxdı. Dildə o termin qalır ki, işləklik qazansın. Əsas səbəb odur ki, termin xalq tərəfindən qəbul edilsin. Biz termini hazırlayıb xalqa təqdim edirik, xalq qəbul etməyəndə çıxarırıq. Məsələn, Terminologiya Komissiyası bir ara "aksioma" sözünü "özübəlli", "nöqtə"ni "bənək", "plyus"-u "toplam" kimi verirdi, işləklik qazanmadı. Dildə süniliyə yol verilməməlidir. Hər hansı sahənin mütəxəssislərindən də çox şey asılıdır. Mütəxəssislər hansı sözə üstünlük verirlərsə, o söz də işləklik qazanır. Bizdə kompüterlə bağlı çoxlu alınmalar var, onları qəlibləşdirə bilmərik. Hansı terminlər beynəlxalq əhəmiyyətlidirsə, üçdən artıq dildə işlədilirsə, biz də olduğu kimi götürüb işlədirik. Termin yaradıcılığı olduqca çətin və mübahisəli məsələlərdən biridir. Ancaq Azərbaycan dilində, eləcə də dünya dillərinin hər birində termin yaradıcılığı prosesində prinsiplər müəyyənləşmiş, formalaşmışdır. Müstəqillikdən əvvəlki dövrdə biz bütün terminləri rus dilindən alırdıq. Müasir dövrümüzdə isə termin yaradıcılığı prosesində terminlərin əksəriyyəti Avropadan, birbaşa mənbə dilindən götürülür. Bu onun yazılışına da təsirini götürür. Məsələn, "kompüter" sözünü ilkin müstəqillik dövründə rus dilindən aldığımız üçün "kompyuter" yazırdıq, çünki rus dilində "yu" şəklində tələffüz olurdu. Ancaq hazırda onun ingilis dilində yazılışını qəbul etmişik, beləliklə, artıq "kompüter" kimi yazılır (3.2).

Sosial şəbəkələr ana dili öyrənmək üçün yer deyil, bu, sadəcə, ictimai ünsiyyət məkanıdır. Buna görə də hər cür sərbəst danışmaq olar və dildən də istənilən səviyyədə istifadə edilə bilər, ikinci, sosial şəbəkələr sürətli, çevik və şəxsi ünsiyyət üçün münasibdir, buna görə də sözlərin qısa, təhrif edilmiş şəkildə yazılmasını da qəbul etmək olar. Fikir başa düşüldü, kifayət edər, sosial şəbəkələrdə hər istifadəçi öz bilik səviyyəsi, yazı vərdişlərinə uyğun iştirak edir, buna görə də ədəbi dil və onun normalarına uyğun davranmaq üçün münasib yer deyil. Belə olan surətdə sərbəst ünsiyyət məkanı olan sosial şəbəkələrdə belə halların olması niyə dil pozuntusu hesab edilsin.

Belə fikirlərə bəlkə də ilk baxışdan haqq qazandırmaq və razılaşmaq olar, lakin unutmaq olmaz ki, sosial şəbəkələr sərbəst ünsiyyət yeridir, amma hər kəsin istəyinə uyğun fəaliyyət məkanı deyil, sosial şəbəkə ictimai ünsiyyət yeri olduğu üçün həm də nəzarət tdilən və müəyyən qaydalarla tənzimlənən, qarşılıqlı ünsiyyət

məkanıdır. Hər istifadəçinin bir dialekti, bir şivəni və s. təmsil etməsinə baxmayaraq, ədəbi dilimizin normalarına uyğun düzgün yazmaq hər bir azərbaycanlının dilimizə və millətimizə olan vətəndaşlıq borcudur. Sözlərin bütöv, tam yazılmalı, cümlədə söz sırasının qorunması, dialekt, şivə, loru sözlərindən istifadə etməmək, durğu işarələrindən, lüğət fondumuzun söz ehtiyatlından yerində və düzgün istifadə etmək müəyyən "vaxt itkisi hesab edilsə" də, məhz düzgün, dəqiq nitqin ortaya çıxmasına imkan yaradır. Bu, həm də dövlət dilimizin, bizi təmsil edən, ictimaiyyətə, dünyaya tanıdan ana dilimizin hörmətlə, məhəbbətlə qarşılanmasına imkan yaradır. Ana dilimizin təbliği təkcə sinif otaqlarının, kitabların, kürsülərin yeri deyil, eyni zamanda bütün dünyanın istifadə etdiyi sosial şəbəkələrin yeridir.

Sosial şəbəkələrdə tez, yığcam və savadsız yazmaq, fikri bacardıqca tez çatdırmaq bəzi istifadəçilərə "müasir tələb" kimi görünür. Lakin belə "sərbəstlik" dilimizə zərbə vurur. Azərbaycan dilini bilməyən, ədəbi dil normalarına bələd olmayanlar dilimizi korlayırlar. Bu faktorların hamısı dilimizin saflığına xələl gətirən amillərdir. Belə problemlər sosial şəbəkələrdə paylaşım və ünsiyyət zamanı çox tez-tez rast gəlinir.

Media eksperti İ. Rafiqoğlu qeyd edib ki, dilin normalarının bu qədər sistematik və kobud qaydada pozulmasının açıq bilinən səbəbləri var: "Azərbaycan dilində olan mətnləri yoxlamaq üçün elə də böyük imkanlar yoxdur. Yəni "vord" proqramında səhvlər ortabab bir formada aşkarla bilər, bir də son dövrlərdə süni intellektin köməyi ilə səhvləri üzə çıxarmaq olur. Olan sistemlər də mükəmməl deyil. Bu sahədə hələ də qarışıqlıq var. Qaydanı tapa bilməyən jurnalist də özünün bildiyi kimi xəbəri hazırlayır, redaktor da tələsdiyindən diqqətlə oxumadan sayta ötürür. Əgər rus dilində "orfoqrafiyanı yoxla" sözünü axtarış sisteminə yazası olsaq, ən azı 10-15 resurs tapa bilərik. Eyni sözü Azərbaycan dilində yazanda, normal bir platforma tapmaq olmur" (5,1).

Media eksperti İsmayıl Rafiqoğlu əlavə edib ki, bu gün Azərbaycanın xəbər saytlarını izləyərkən, onlarla orfoqrafik, qrammatik, leksik səhvlərlə qarşılaşırıq.
Dil vasitəsilə ünsiyyət yalnız bütün səviyyələrdə müəyyənləşmiş norma sayəsində mümkündür, normanın pozulması həmişə məlumatın, fikrin çatdırılmasında maneələr yaradır. Odur ki, norma məsələsini izlədikdə də bu halı nəzərə almaq, dilin daxili qanunlarını və eləcə də onun inkişafına təkan verən ekstralinqvistik amilləri nəzərə almaq vacibdir. Dil vasitəsilə ünsiyyət yalnız bütün səviyyələrdə müəyyənləşmiş norma sayəsində mümkündür, normanın pozulması həmişə məlumatın, fikrin çatdırılmasında əngəllər yaradır. Bu səbəbdən nitq istisnalarını nəzərə almasaq, norma pozuntusu dilin daxili təbiətinə ziddir, buna görə də dildə norma pozuntusu yolverilməzdir.

Ədəbi dil normalarını bilmək, dilimizin qrammatikasına, leksik imkanları və normalarına bələd olmaq olduqca vacibdir. Azərbaycan ədəbi dil normalarının pozulmasının qarşısını almaq, ana dilimizin qorunması və gələcək nəsillərə saf bir

şəkildə ötürülməsi, ədəbi dilin düzgün tətbiqi hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Sayt və sosial şəbəkədə cəmiyyətə qarşı açıq hörmətsizlik hərəkətləri qadağan edilib. Söhbət burada "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanununda edilən dəyişiklikdən gedir:"Yəni bunun izahı verilir ki, əxlaqsız ifadələrin səslənməsinə, belə məzmun yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatların yayılması qadağandır. Bu da İnzibati Xətalar Məcəlləsinin 388-1-ci maddəsi ilə məsuliyyət yaradır"(6.1). Bu sözləri Axar.az-a açıqlamasında hüquqşünas Əkrəm Həsənov deyib.

## Ədəbiyyat

1. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı". 9 aprel 2013-cü il.
2. Bu səhvlər kütləviləşsə, dilimizdəki problemləri aradan qaldırmaq çətin olacaq. Publika.az. 7 sentyabr 2018.
3. Sayalı Sadıqova: "Qanunların dili ilə bağlı bizə də çox şikayət gəlir" – Müsahibə. ONA onlayn xəbər agentliyi, 8 aprel 2019.
4. Monitorinq Mərkəzi saytlarda dil normaları ilə bağlı pozuntuların sayını açıqlayıb. Bakı, SİA (Səs İnformasiya Agentliyi), 4 dekabr 2023.
5. Mediada dilçilik səhvləri: "Kim necə istəyir, elə də yazır". Yeni Çağ Media Qrupu. 18 oktyabr 2024.
6. Sosial şəbəkədə yeni qadağanı pozanın cəzası...Axar.az., 17.01.2026.

## Xülasə

Məqalədə sosial şəbəkələrdə ana dilimizin əsas problemlərindən biri olan leksik normaların pozulması tədqiq edilir. Saytlarda leksik normaların pozulmasının səbəbləri araşdırılır. Leksik normaların bu qədər sistematik və kobud qaydada pozulmasının əsas səbəbləri göstərilir.

Respublikamızın prezidenti Cənab İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"-ndan sitat verilib. Qeyd edilir ki, Proqramda ana dilimizin dövlət dili kimi inkişafı, ədəbi dil normalarına əməl olunması üçün ciddi vəzifələr müəyyənləşdirilib.

Araşdırılır ki, sosial şəbəkələrdə bir çox hallarda ədəbi dilimizin leksik normaları pozulur. Sözlər saitsiz işlənir, hər kəs öz bilik səviyyəsində yazdığına görə ədəbi dil normaları kobud şəkildə pozulmuş olur, sözlər istənilən kimi yazılır. Tələffüz etdikləri kimi yazırlar, hətta dialekt, şivə, hətta loru, vulqar, tabu sözlər işlədilir. Sözlər mənalarına görə yerində istifadə edilmir. Cümlədə söz sırası və

sözlərin düzgün əlaqələndirilməsinə əməl olunmur. Belə pozuntulara sosial şəbəkələrdə ünsiyyət zamanı çox tez-tez rast gəlirik.

Məqalədə media eksperti İsmayıl Rafiqoğlunun sosial şəbəkəiərdə ədəbi dil normalarının pozulmasının səbəbləri haqqında fikirləri öz əksini tapmışdır. O qeyd edib ki, dilin normalarının bu qədər sistematik və kobud qaydada pozulmasının açıq bilinən səbəbləri var.

Nəticədə göstərilir ki, ədəbi dil normalarını bilmək, dilimizin qrammatikasına, leksik imkanları və normalarına bələd olmaq çox vacibdir. Azərbaycan ədəbi dil normalarının pozulmasının qarşısını almaq, ana dilimizin qorunması və gələcək nəsillərə saf bir şəkildə ötürülməsi, ədəbi dilin düzgün tətbiqi hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

**Резюме**

**ОСНОВНЫЕ ПРИЧИНЫ НАРУШЕНИЯ ЛЕКСИЧЕСКИХ НОРМ В СОЦИАЛЬНЫХ СЕТЯХ**

**Керимова Ирада Исрафил кызы**

В статье исследуется нарушение лексических норм, являющееся одной из главных проблем нашего родного языка в социальных сетях. Расследуются причины нарушений лексических норм на веб-сайтах. Указаны основные причины столь систематического и грубого нарушения лексических норм.

В статье также отражена цитата из «Государственной программы по использованию азербайджанского языка в соответствии с требованиями времени в условиях глобализации и развития лингвистики в стране», подготовленной Президентом нашей Республики Господином Ильхамом Алиевым. Следует отметить, что Программа ставит перед собой серьезные цели по развитию нашего родного языка как государственного языка и обеспечению соответствия нормам литературного языка.

Указывается, что в социальных сетях во многих случаях нарушаются лексические нормы литературного языка. Слова используются без гласных, и поскольку каждый пишет на своем уровне знаний, нормы литературного языка грубо нарушаются, слова пишутся так, как ему заблагорассудится. Пишут так, как произносят, даже используя диалект, акцент и даже вульгарные, табуированные слова. Слова используются не в соответствии с их значениями. В предложениях часто встречаем нарушентй порядок слов и неверных словесных координаций. Очень часто сталкиваемся с подобными нарушениями при общении в социальных сетях.

В статье отражена точка зрения медиаэксперта Исмаила Рафигоглу о причинах нарушения норм литературного языка в социальных сетях. Он отметил, что существуют общеизвестные причины таких систематических и грубых нарушений языковых норм.

В заключении отмечено, что знание норм литературного языка, знакомство с грамматикой, лексическими возможностями и нормами нашего языка имеет чрезвычайно важное значение. Предотвращение нарушений норм азербайджанского литературного языка, сохранение нашего родного языка и его передача будущим поколениям в чистом виде, а также правильное использование литературного языка гражданский долг каждого азербайджанца.

**Kerimova İrada İsrafil**

**Summary**

**MAIN REASONS FOR VIOLATION OF LEXICAL NORMS IN SOCIAL NETWORKS**

The article examines the violation of lexical norms, which is one of the main problems of our native language on social networks. The reasons for violations of lexical norms on websites are being investigated. The main reasons for such systematic and gross violation of lexical norms are indicated.

A quote was given from the "State Program on the Use of the Azerbaijani Language in Accordance with the Requirements of the Times in the Conditions of Globalization and the Development of Linguistics in the Country" by the President of our Republic, Mr. Ilham Aliyev. It is noted that the Program sets serious goals for the development of our native language as the state language and compliance with literary language norms.

Research is being conducted that shows that in many cases the lexical norms of our literary language are violated on social networks. Words are used without vowels, and since everyone writes at their own level of knowledge, the norms of literary language are grossly violated, words are written as they please. They write as they pronounce, even using dialect, accent, even vulgar, taboo words. Words are not used in their proper place according to their meanings. In sentences we often encounter violations of word order and incorrect verbal coordination. We encounter such violations very often when communicating on social networks.

The article reflects the views of media expert Ismayil Rafigoglu on the reasons for the violation of literary language norms on social networks. He noted that there are clearly known reasons for such systematic and gross violations of language norms. As a result, it is shown that it is extremely important to know the norms of literary language, to be familiar with the grammar, lexical possibilities and norms of our language. Preventing the violation of the norms of the Azerbaijani literary language, preserving our native language and transmitting it to future generations in a pure manner, and correctly applying the literary language are the civic duty of every Azerbaijani.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 39-45*

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Cavanşir Muradov**